

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

1 fevral 2024-cü il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 4 (3668)

# Böyük Qayıdışın müəllifi

## Qarabağ və Şərqi Zəngəzura bu il də minlərlə sakin qayıdacaq



**Azərbaycan ötən ili tarixi qələbələr, böyük nailiyyətlər, bol uğurlarla başa vurdu. Ərazi bütövlüyümüzün tam təmin olunması ilə bayrağımız Xankəndidə, Xocalıda, Xocavənddə, Əsgəranda ucaldıldı.**

Qarabağ və Şərqi Zəngəzura qayıdışı milli prioritetimiz kimi müəyyənləşdirən Prezident İlham Əliyevin əzmi, qətiyyəti və iradəsinin nəticəsidir ki, onilliklər boyu düşmənin viran qoyduğu, bir həyat nişanəsi belə tapmaq mümkün olmayan ərazilərimizdə indi həyat qaynayır. Təkcə ötən il dörd yaşayış məntəqəmizə - Tərtərin Talış, Laçının Zabux kəndlərinə, eləcə də Füzuli və Laçın şəhərlərinə minlərlə insan qayıdış karvanları ilə dönüb.

Bütün bunlar həm də onu göstərir ki, bu torpaqların əsl sahibləri qayıdıblar.

Bu gün işğaldan azad olunmuş ərazilərdə çoxsaylı yaşayış məntəqəsi yenidən qurulur. Böyük infrastruktur layihələri həyata keçirilir, dəmir yolları, avtomobil yolları, tunellər çəkilir, beynəlxalq hava limanları tikilib istifadəyə verilir, "ağıllı kənd və şəhərlər" salınır.

Dövlət tərəfindən 10 min kvadratkilometr ərazidə böyük tikinti-quruculuq işləri aparılır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda xalqımızın tarixi, dini, mədəni irsi müvəffəqiyyətlə bərpa olunur.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərini Prezident İlham Əliyevin o bölgələrə həyata keçirdiyi mütəmadi səfərlər sayəsində daha aydın şəkildə görmüş oluruq.

Ötən il də dövlət başçısı İlham Əliyev Birinci xanım Mehriban Əliyeva ilə birgə azad olunmuş ərazilərə mütəmadi səfərlər etdi, görülən işlərlə yerində tanış oldu, yeni açılışlara, təməllərə imza atdı.

May ayının 2-dən etibarən düz 10 gün ərzində dövlət başçısı əzəli yurdlarımızda - Ağdamda, Qubadlıda, Zəngilanda, Xocavənddə, Füzulidə, Hadrutda, Şuşada xeyli sosial obyektlərin açılışlarını etdi, yenilərinin bünövrələrini qoydu.

Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bu il də Qarabağda, Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısının davam etdiriləcəyini bildirdi. Dövlət başçısı məlumat verdi ki, keçmiş məcburi köçkünlərin bu il qaytarılacaqları şəhərlər arasında beş şəhər - Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi, Xocalı şəhərləri olacaq. Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur. Bununla paralel olaraq bir neçə kəndə keçmiş köçkünlər qayıdacaqlar. Məsələn, Laçın rayonunun Sus kəndi hazır olacaq. Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpasına artıq start verilib.

İşğaldan azad edilən torpaqlarımızda Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti və bərpa işləri, o cümlədən Qayıdış proqramının uğurla icra edilməsi onu göstərir ki, bu il də Qarabağ və Şərqi Zəngəzurda ardıcıl olaraq quruculuq və qayıdış zəfərləri yaşayacağıq.

# Dost, qardaş, strateji müttəfiq...

## Əlaqələr "Bir millət, iki dövlət" prinsipi üzrə inkişaf edir

Prezident İlham Əliyev yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Söhbət zamanı Şuşa Bəyannaməsinin əhəmiyyəti vurğulanıb, hərbi, müdafiə sənayesi, təhlükəsizlik, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

# Azərbaycan logistika mərkəzidir

## Ölkəmiz üzərindən tranzit daşımaların həcmi artıb

Azərbaycanın beynəlxalq ticarət bazarında rolu güclənir. Bu, Azərbaycanın qlobal nəqliyyat logistikasında mühüm tərəfdaş kimi potensialını meydana çıxarıb. Ötən il ölkə ərazisindən keçən yüklərin həcmi 2019-cu illə müqayisədə 162 faiz artaraq 5,1 milyon tondan 13,4 milyon tona yüksəlib.

Dəmir yolu ilə tranzit daşımaların da həcmi 2019-cu illə müqayisədə 76 faiz artaraq 3,8 milyon tondan 6,7 milyon tona, avtomobil nəqliyyatı ilə tranzit daşımalarının həcmi isə 1,3 milyon tondan 6,5 milyon tona yüksəlib.

# Dövlət qayğısı

## Sosial siyasətin böyük uğuru

Son 20 il ərzində sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox artıb. Orta aylıq nominal əməkhaqqı 12 dəfə yüksələrək 923,1 manata çatıb. Sosial müavinət və sosial təqaüd ödənişləri 5 dəfəyə yaxın artıb. Şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 14,8 min mənzil və fərdi ev, 7600 avtomobil verilib.

Ötən dövrdə sosial siyasətin ən böyük uğurlarından biri 2,7 milyondan çox yeni iş yerinin yaradılmasıdır.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev yanvarın 30-da bir sıra birinci instansiya məhkəmələrinə hakimlərin təyin edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 29-da Dövlət Gömrük Komitəsi əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 29-da Xanlar Adil oğlu Ağalarovun Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 27-də dövlət büdcəsinin tərkibində "Nəqliyyat vasitələrinin utilizasiyası fondu"nun yaradılması haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 25-də dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.



# Nazir vətəndaşları qəbul edib

## Problemlərin həlli ilə bağlı tapşırıqlar verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov yanvarın 24-də və 25-də Gədəbəy Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Gədəbəy rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Ağstafa, Daşkəsən, Tovuz, Qazax, Gədəbəy və Şəmkir şəhər və rayonlarından qəbula gələn 125 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

*(Ardı 2-ci səhifədə)*

Seçici səslərinin keşiyində 2

Gələcəyə yol açan gəncliyimiz 3

İctimai dəstək vacib amildir 3

Yazınız xarakterinizdən xəbər verir 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Birgə hərəkət razılaşdırılıb

Baş nazir Əli Əsədov yanvarın 30-da Rusiya Federasiyasının mülki müdafiə məsələləri, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması naziri Aleksandr Kurenkovla görüşüb. Görüş zamanı fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində Azərbaycan-Rusiya əməkdaşlığının genişləndirilməsinin perspektivləri müzakirə olunub.

### Növbəti təkliflər əldə etmişik

Xarici işlər naziri Ceyhun Bayramov yanvarın əvvəlində Ermənistan tərəfindən sülh müqaviləsi üzrə növbəti təkliflərin əldə edildiyini jurnalistlərə bildirib. "Hazırda Azərbaycan tərəfi prosedura uyğun olaraq həmin paket üzrə öz daxili işlərini həyata keçirir. Növbəti həftələr ərzində böyük ehtimalla bizim tərəfimizdən Ermənistana cavab təqdim olunacaq",- deyə nazir qeyd edib.

### Üç təşkilat "exit-poll" keçirəcək

Mərkəzi Seçki Komissiyasında prezident seçkilərində "exit-poll" keçirmək üçün akkreditasiya ilə əlaqədar 3 təşkilatın müraciətinə baxılıb. Beləliklə, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ABŞ-ın "OREACLE ADVISORY GROUP" təşkilatı ilə birgə 500 seçki məntəqəsində, Rəy Monitorinq Mərkəzi 200 seçki məntəqəsində, "Sosioloji Tədqiqatlar Mərkəzi" MMC 125 seçki məntəqəsində "exit-poll" keçirməyi planlaşdırır.

### Valyuta ehtiyatlarımızda artım

Ötən il Azərbaycanın strateji valyuta ehtiyatları 17 faiz artaraq ilin sonuna 68,5 milyard dollara çatıb. Bu barədə Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov faiz dəhlizinin parametrləri ilə bağlı keçirilən mətbuat konfransında çıxışı zamanı deyib. AMB sədri valyuta ehtiyatlarında 29,1 faiz artım müşahidə olunduğunu qeyd edib.

### Qarabağda torpaq islahatı

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məskunlaşan vətəndaşların istifadəsinə torpaqların verilməsi istiqamətində müzakirələr aparılır. Bununla bağlı Əlaqələndirmə Şurasının nəzdində işçi qrupu yaradılıb. Gələcəkdə torpaq islahatının həyata keçirilməsi konsepsiyasına dair təkliflər hazırlanır. Kənd Təsərrüfatı Nazirliyinin təqdim etdiyi layihələr işçi qrupunda müzakirə olunub.

### Məşğulluq təmin edilir

İşğaldan azad olunan ərazilərdə məşğulluğun həlli ilə əlaqədar əmək qabiliyyəti olanlarla əlaqədar fəal iş aparılır. Artıq 1300 nəfər daimi işlə təmin olunub. Ötən il öz yaşayış yerinə dönən təqribən 600 nəfər üçün peşə hazırlığı üzrə müvafiq təlim və treninqlər keçirilib. Bu il həmin rəqəm 3 minə çatdırılacaq.

### Laçına qayıdış

Respublikanın müxtəlif ərazilərində müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı yanvarın 30-da Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə - 72 nəfər köçürülüb. Bununla da Laçın şəhərinə 431 ailənin, yəni 1627 nəfərin daimi məskunlaşması təmin edilib.

### Yol infrastrukturu yenilənib

Azərbaycanda son 20 ildə 21 min kilometrə yaxın yeni yol tikilib, yenidən qurulub və təmir edilib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata görə, bunun 6 782,6 km-i respublika əhəmiyyətli, 11 418,7 km-i yerli əhəmiyyətli, 2 454,4 km-i Bakı şəhər yolları, 47,9 km-i Sumqayıt şəhər yolları olub.

### Uşaqlar ailələrinə qovuşub

Reinteqrasiya yönümlü tədbirlər nəticəsində ötən il 197 uşaq dövlət uşaq müəssisələrindən ailələrinin himayəsinə qaytarılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, ümumilikdə son dörd ildə 448 uşağın müəssisələrdən ailələrinə qayıdışına nail olunub.

### Bu il 5 milyon ağac əkiləcək

"Yaşıl dünya naminə həmrəylik ili"ndə 5 milyon ağacın əkilməsi planlaşdırılır. Ekologiya və təbii sərvətlər nazirliyindən bildirilib ki, ağacların 3 milyonunun Nazirlik tərəfindən əkilməsi nəzərdə tutulub. İki milyon ağacın əkilməsini isə müxtəlif dövlət qurumları, icra hakimiyyətləri həyata keçirəcək.

# Nazir vətəndaşları qəbul edib

## Problemlərin həlli ilə bağlı tapşırıqlar verilib



*(Əvvəli 1-ci səhifədə)*

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

32 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 112 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.



# Seçici səslərinin keşiyində

## Tarixi hadisənin şahidi və iştirakçılarıyıq

**Növbəti həftə ölkəmizin ərazi bütövlüyü bərpa olunandan sonra keçiriləcək ilk seçki kimi tarixə düşəcək növbədənkənar prezident seçkiləridir. Böyük siyasi hadisəyə artıq sayılı günlər qalıb.**

Seçkilərin demokratik, ədalətli, şəffaf, beynəlxalq standartlara uyğun keçirilməsi ölkədəki sabitliklə sıx bağlı olduğuna görə daxili işlər orqanlarının fəaliyyəti dövlətin siyasi həyatının bu mərhələsində daha çox diqqət cəlb edir. Dünyanın və yerli ictimaiyyətin nəzərləri istəristəməz həmin gün yalnız iki dövlət qrumunun, seçkini təşkil edən aidiyyəti komissiyanın və polisin üzərində cəmlənir.

Hazırkı təbliğat və təşviqat dönəminin ölkədəki sabitlik, əmin-amanlıq şəraitində davam etməsi qarşıya qoyulan vəzifələrin ilk mərhələsinin layiqincə yerinə yetirildiyini göstərir. Buraya seçki günündək şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən, 18 yaşı tamam olan vətəndaşların yeni sənədlərlə təmin olunması, eləcə də vətəndaşların yaşayış yeri üzrə qeydiyyata alınmaları üçün zəruri tədbirlərin görülməsi də daxildir. Səsvermə günü seçicilərin, beynəlxalq müşahidəçilərin və prosesdə iştirak edən digər şəxslərin təhlükəsizliyinin təmini ilə bağlı əvvəlki illərin böyük təcrübəsini nəzərə alsaq, həmin gün də qanunazidd hərəkətlərə yol verilməyəcəyinə şübhə qalmır.

Bu seçkinin özünəməxsus cəhəti də var. Azad edilmiş ərazilərdə ilk dəfə seçki məntəqələri təşkil edilib və orada 20 mindən artıq seçicinin səs verəcəyi bildirilir. Deməli, seçki məntəqələrinin mühafizə edilməsi və seçki qutularının daşınma ehtiyacı olduqda onların müşayəti polisin xidmət sahəsini xeyli genişləndirib. Polis bütün ölkə boyu, sərhədsiz Vətənin suveren hüdudları daxilində fəaliyyət göstərməklə, bir




daha tarixi hadisənin şahidinə və aparıcı iştirakçısına çevriləcək.

Yeni çağırışlar polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsini və məlumatlılıq səviyyəsinin yüksəldilməsini tələb etdiyinə görə bu istiqamətdə əhəmiyyətli tədbirlər görülüb. Daxili İşlər Nazirliyi ilə Mərkəzi Seçki Komissiyasının birgə hazırladığı "Polis əməkdaşları üçün yaddaş kitabçası" bunun üçün zəruri metodiki vəsait rolunu oynayır. Kitabçada seçkilərə hazırlıq və keçirilməsi, seçkiqabağı təşviqat mərhələsində, səsvermə günü və rəsmi seçki sənədlərinin daşınması, mühafizə olunması proseslərində polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş xidməti vəzifələrini yerinə yetirərkən həyata keçirəcəyi tədbirlər, habelə vəzifələri aydın göstərilib.

Seçki Komissiyası ilə birgə keçirilən regional seminar-müşavirələr də başa çatıb. Seçki subyektlərinin maarifləndirilməsi məqsədilə Bakı, Gəncə, Şəki, Şirvan və Naxçıvanda keçirilən genişmiqyaslı tədbirlərdə polis orqanları ilə birgə fəaliyyətin əsasları müəyyən edilib. Müşavirədə Mərkəzi Seçki Komissiyasının, Daxili İşlər Nazirliyinin nümayəndələri, dairə seçki komissiyalarının sədrləri, ətraf rayonların polis şöbələrinin əməkdaşları və beynəlxalq müşahidəçilər iştirak edib.

Bir sözlə, seçki günü polisin xidməti həm də demokratiyanın, şəffaflığın, ədalətin təməllərinin qorunması anlamına gələcək. Çünki o gün təhlükəsizliyin təmini üçün xidmətə çıxacaq bütün polis əməkdaşları gündəlik xidməti borclarını yerinə yetirməklə yanaşı, seçici səslərinin keşiyini çəkmək növbəsində olacaqlar.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Vətəndaş məmnun qalanda...

## Polisə rəğbət hissi ilə yazılan məktublar

Vətəndaş məmnunluğunun təmin olunması güclü dövlət konseptinin əsas prinsiplərindəndir. Bu gün DİN rəhbərliyi tərəfindən DİO əməkdaşlarının qarşısına qoyulmuş tələblərdən biri də məhz budur.

Xidmətimizlə bağlı DİN-ə ünvanlanan məktublarda da bu öz əksini tapır.

Sosial şəbəkə istifadəçisi **Kamal Qazıyev** yazır ki, 2000 avronu səhvən başqa şəxsə verməyilə əlaqədar "102" Xidməti - zəng Mərkəzinə məlumat verib. O, Nərimanov RPİ-nin 16-cı Polis Şöbəsinə dəvət



olunub, izahatı alınıb. Qısa zaman kəsiyində pulu tam şəkildə qaytarılan vətəndaş operativliyə, vətəndaş müraciətinə hassas yanaşmalarına görə minnətdarlığını bildirir.

"Dələduzluqla üzləşdiyim üçün Xətai Rayon Polis İdarəsində qəbulda oldum. Səmimi münasibətə və problemimin müsbət həllini tapmasında göstərilən köməkliyə görə Azərbaycan Polisinə təşəkkürümü bildirirəm". Bu məktub sosial şəbəkə istifadəçisi **İlkin Əlizadə** tərəfindən ünvanlanıb.

**Ramin Nəcəfov** ona məxsus obyektdə xuliqanlıq hadisəsilə əlaqədar etdiyi müraciətinə obyektiv baxılmasına və dəymiş ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə Nərimanov RPİ-nin 16-cı Polis Şöbəsinin şəxsi heyətinə minnətdarlıq edir.

**Ceyhun Məmmədov:** "Saytların birindən mobil telefon sifariş etmişdim. Pulu ödədikdən sonra aldadıldığımı bildim və üzləşdiyim dələduzluq faktıyla bağlı müraciət etdim. Müraciətimə operativ baxıldı və problemim qısa zaman kəsiyində həllini tapdı. Azərbaycan Polisinə minnətdaram".

Sabirabad rayon sakini **Aslan Həsənov** isə vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, asayişin təmin olunmasında, cinayətkarlıqla mübarizədə fəal iştirakına və vətəndaşlarla səmimi münasibətə görə Sabirabad Rayon Polis Şöbəsinin şəxsi heyətinə minnətdarlıq ifadə edir.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Polis olmaq istəyənlər üçün

## Təbliğat gənclərə doğru seçim imkanı verir

Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq məqsədilə Nazirliyin nümayəndələri respublikanın şəhər və rayonlarında yuxarı sinif şagirdləri ilə görüş keçiriblər.

Görüşlərdə polisin tarixi, daxili işlər orqanlarına xidmətə qəbul qaydaları, həmçinin DİN sistemində təhsil almaq imkanları barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, bu il Polis Akademiyasına "hüquqşünaslıq" ixtisası üzrə 2024/2025-ci tədris ilində əyani təhsilə 500 kursantın qəbulu nəzərdə tutulub.

Tədbirdə bu təhsil ocağında yaradılan şərait "Virtual Akademiya" platforması vasitəsilə nümayiş olunub, müasir tədris korpusları, zəngin kitabxanalar, laboratoriyalar, yataqxanalar, idman və atıcılıq meydançaları barədə şagirdlərə geniş məlumat verilib.

Ölkəmizdə gənclərin inkişafı üçün böyük layihələrin həyata keçirildiyini bildirən nazirlik nümayəndələri daxili işlər orqanlarının ölkəmizdə təmin etdiyi etibarlı sabitliyə töhfə vermək arzusunda olanlara dövlətimizin bütün imkanlarını səfərbər etdiyini vurğulayıblar.

Respublikanı əhatə edən görüşlərdə polis olmaq arzusunda olan gəncləri maraqlandıran suallar cavablandırılıb.

*"Polis"*

# Gələcəyə yol açan gəncliyimiz

## Vətəni bütövlüyünə qovuşduranların tarixdə izi və imzası qalır





**Görkəmli rus yazıçısı və dramaturqu Qoqol yazırdı ki, gəncliyin xoşbəxt olması onun gələcəyinin olmasıdır. Bu fikirlə razılaşmamaq mümkün deyil. Bir də onu əlavə etmək olar ki, gənclik etibarlı və sağlam əsaslara malik olduğu halda xoşbəxt sayıla bilər.**

Vətən müharibəsində canından, qanından keçən, misilsiz qəhrəmanlıq nümunələri göstərən gənclərimiz yüksək vətənpərvərlik ruhunda formalaşdıqlarını sübut etməklə, həm də xoşbəxt gələcəyin aparıcı qüvvəsi olduqlarını dünyaya göstərdilər. O gənclər ki, ulu öndər Heydər Əliyev məktəbinin, Prezident İlham Əliyevin idarəçiliyinin yetirmələridir.

Bu gün daxili işlər orqanlarının şəxsi heyəti əsasən gənclərdən komplektləşdirilib. Cinayətkarlıqla mübarizənin ağırlığı həm də onların çiyinlərindədir. Vətən müharibəsi iştirakçılarının daxili işlər orqanlarında xidmətə qəbul olunması ilə əzmkarlıq, fədakarlıq, igidlik tələb edən polis peşəsinə yeni qəhrəmanlar qoşuldu.

**Səbail RPİ-nin Post Patrul Xidməti** Bölüyünün əməkdaşı polis serjantı Xuduzadə Anar Həsənağa oğlu da onlardan biridir. O, Bakıda dünyaya göz açanda ölkənin bir tərəfində, Qarabağda qızğın döyüşlər gedirdi. O da tay-tuşları kimi işğal olunmuş torpaqların həsrəti ilə boy atır və nəhayət, Vətən müharibəsi başlayanda cəbhəyə könüllü yollanır. Bu onun içində həsrətlə birlikdə boy atan vətənpərvərliyin çağırışı idi. Döyüş yolu Füzulidən, Şuşadan, Xocavənddən və Cəbrayıldan keçir. Prezident İlham Əliyevin sərəncamları ilə "Füzulinin azad olunması uğrunda", "Şuşanın azad olunması uğrunda", "Xocavəndin azad olunması uğrunda", "Cəbrayılın azad olunması uğrunda", Nazirlər kabinetinin sərəncamlarıyla "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Qalib gəncliyin Vətən müharibəsindən sonra üzünə açılan qapılar onu da arzusuna qovuşdurur. 2021-ci ildə daxili işlər orqanlarının sıralarına qəbul olunur. Tale elə gətirir ki, o, anadan olarkən Qarabağda qızışan erməni separatizminin kökünü kəsmək üçün Qarabağa artıq peşəkar polis əməkdaşı kimi dönür.

Qarşıdan gələn Gənclər günü münasibətilə bu qəhrəman həmkarımızla söhbət zamanı bildirdi ki, 2023-cü il sentyabr ayının 19-u Qarabağda başlayan antiterror tədbirlərində iştirak edib. Sevinir ki, həmin gün Qarabağdakı separatçı hakimiyyətin təslim olması və silah-sursatların təhvil verilməsi ilə nəticələnən 24 saatlıq antiterror tədbirlərində qəhrəmanlıq, şücaət göstərən hərbçi və polislərin qəhrəmanlıq salnaməsində onunda imzası var.

Qeyd edək ki, müvafiq dövr ərzində 774 nəfər Vətən müharibəsi iştirakçısı DİO-ya qəbul olunub.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# İctimai dəstək vacib amildir

## Texnoloji imkanlar da mübarizənin səmərəsini artırır

Bu gün cəmiyyəti təhdid edən ən böyük problemlərdən biri narkomaniya, narkotik vasitələrin qanunsuz dövriyyəsidir. Bununla bağlı polis qətiyyətli mübarizəsini uğurla davam etdirir.

Demək olar ki, hər gün narkotacirlər, narkokuryerlər polis əməkdaşları tərəfindən əməliyyat yolu ilə ifşa olunur, küllü miqdarda narkotik vasitə, psixotrop maddə qanunsuz dövriyyədən çıxarılır.

Sosial şəbəkələr üzərindən narkotiklərin alışını, satışını həyata keçirən "gözə görünməyən"lər də cinayət məsuliyyətindən yayına bilmir. Belə ki, əməliyyat-texniki tədbirlərlə həmin şəxslərin kimliyi və yeri müəyyən olunur, saxlanılır, barələrində Cinayət Məcəlləsinin müvafiq maddələrilə iş açılır. Bu, eyni zamanda, həm də polisin müasir texnologiyalarla yüksək peşəkarlıqla işləmə bacarığı deməkdir.

### Statistik rəqəmlər fəaliyyətin göstəricisidir

Gəncliyimizi və gələcəyimizi hədəf alan narkomaniya ilə mübarizədə maarifləndirmə xüsusi önəm daşıyır. Bu mənada, ötən il polis əməkdaşları tərəfindən təhsil ocaqlarında keçirilən 2700-dən çox maarifləndirici görüşün əhəmiyyətini vurğulamaq yerinə düşər.



Kənardan bu rəqəm adi statistika kimi görünsə də, təhlillər onu göstərir ki, maarifləndirmə metodu effektiv və səmərəli nəticələr verir. Son dövrlər "ağ ölümlə" mübarizədə vətəndaşların fəal iştirakı, sözün birbaşa mənasında, ictimaiyyətin polisə hər cür dəstək göstərməsi mübarizəyə və maarifləndirməyə də təsirsiz ötüşmür.

Yeri gəlmişkən, 2023-cü ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına həsr olunmuş Kollegiya iclasında narkotiklərlə mübarizənin vəziyyətinə toxunulub, cari ildə qanunsuz dövriyyədən 4 ton 464 kiloqram narkotik vasitənin çıxarıldığı bildirilib.

Bu növ cinayətlərlə mübarizədə vətəndaşların fəal iştirakı, məlumatlar əsasında bir çox əməliyyatların həyata keçirildiyi vurğulanıb.

Yeniyetmələr və gənclər arasında aparılan antinarkotik təbliğatının, bu qəbildən olan tədbirlərin davamlı olmasının zəruriliyi qeyd edilib.

Göründüyü kimi, cinayətkarlığa, cəmiyyətimizi təhdid edən bəlalara qarşı mübarizədə polis-vətəndaş həmrəyliyi hesabat dövründə müsbət nəticələrin əldə olunmasına əhəmiyyətli dərəcədə təsir edib. Odur ki, birgə fəaliyyətin davam etdirilməsində fayda var.

*Teymur Əlizadə*
*polis mayoru*

# Uğurlu əməliyyat tədbirlərilə...

## Narkotacirlər və dələduz saxlanılıb, qanunsuz silah-sursat aşkarlanıb

**Abşeron Rayon Polis İdarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin** əməkdaşları tərəfindən Xırdalan şəhəri, Novxanı, Məhəmmədli və Hökməli qəsəbələrində keçirilən əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Əli Babayev, Nərgiz Həsənova, Nadir Məmmədov və Səbir Məmmədov saxlanılıblar.

Onlardan, idarə etdikləri avtomobillərdən və yaşadıqları evlərdən ümumilikdə 15 kiloqram, o cümlədən 9 kiloqram marixuana, 4 kiloqram heroin, 2 kiloqram psixotrop maddə metamfetamin və 50 ədəd satışı qadağan edilən metadon həbi aşkar olunub.

Saxlanılan şəxslər ölkəyə İrandan qaçaqmalçılıq yolu ilə gətirilən narkotikləri Bakı şəhəri və Abşeron rayonunda ayrı-ayrı şəxslərə çatdırıb pul qazanmaq məqsədi ilə əldə etdiklərini bildiriblər.

Faktla bağlı cinayət işləri başlanılıb, əməliyyat-istintaq tədbirləri davam etdirilir.

◆◆◆




Polis əməkdaşları tərəfindən bank kartlarından edilən oğurluqların qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.

Belə ki, **DİN NBPİ Su Nəqliyyatında Polis İdarəsinə** xidməti ərazidə olan bir nəfər vətəndaş şikayət edərək onun kartından onlayn yolla naməlum şəxsin 15 min manat oğurladığını bildirib. Oğurluq hadisəsini törətməkdə şübhəli bilinən 1988-ci il təvəllüdlü Gəncə şəhər sakini Vasif Məmmədov ölkəni tərk etmək istəyən zaman hava limanı ərazisində saxlanılıb.

Araşdırma zamanı onun sosial şəbəkələrdə səhifələr yaradaraq insanların kart məlumatlarını qanunsuz yollarla ələ etdiyi müəyyən olunub.

Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları həmçinin Xəzər dənizinin Sumqayıt şəhəri sahilində xidmət apararan zaman naməlum şəxs tərəfindən əraziyə atılan 1 ədəd "Kalaşnikov" markalı avtomat, 1 ədəd sandıqça və 47 ədəd patron aşkar ediblər. Qeyd edilən silah-sursat təhlükəsizlik tədbirləri görülərək ərazidən götürülüb.

◆◆◆

**Yasamal Rayon Polis İdarəsi**, eləcə də ərazi polis şöbə və bölmələrinin əməkdaşları tərəfindən son 20 gün ərzində keçirilən silsilə əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan ümumilikdə 30 nəfər saxlanılıb. Həmin şəxslərdən 5 kiloqram heroin, tiryək, marixuana və psixotrop maddə metamfetamin aşkar edilib.

Saxlanılanlar narkotik vasitələri sosial şəbəkələrdə tanımadıqları əsasən İran vətəndaşlarından onlayn yolla şəxsi istifadələri ilə yanaşı paytaxt ərazisində satmaq məqsədi ilə əldə etdiklərini bildiriblər.

Faktlarla bağlı Yasamal Rayon Polis İdarəsində araşdırmalar aparılır. Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı polis əməkdaşları tərəfindən əməliyyatlar davam etdirilir.

*Anar Qafarav*
*polis mayoru*

# Kursantların imtahanı

## Yaradılan şərait müsbət nəticə əldə etməyə imkan verir

DİN-in Polis Akademiyasında 2023/2024-cü tədris ilinin payız imtahan sessiyası başlayıb. Fənlərin xüsusiyyətlərinə müvafiq olaraq imtahanlar təsdiq olunmuş cədvəl üzrə, şifahi, yazılı, praktiki və test üsulu ilə keçirilir.

Bununla bağlı "Polis"in sorğusuna cavab olaraq Akademiyadan bildirildi ki, imtahanlara hazırlığın səmərəli təşkili və kursantların daha yaxşı hazırlaşmaları üçün Akademiyanın kitabxanaları gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

Qeyd edək ki, imtahanlarda obyektivliyi və şəffaflığı təmin etmək məqsədilə Akademiya rəisinin müvafiq əmri ilə apellyasiya və fənn komissiyaları yaradılıb.

# Yeniyetməlik "sindromu"

## Gəncləri cinayətkara çevrilməkdən necə qoruyaq?

Son günlərdə məktəblilərin iştirakı ilə baş verən bir neçə cinayət hadisəsi ictimaiyyətdə ciddi narahatlıq doğurmağa bəs etdi. Xüsusən Gəncə şəhərində həmyaşıdı tərəfindən Raul Rəhimovun qətlə yetirilməsi yeniyetmələr arasında aparılan profilaktik tədbirlərin nə qədər əhəmiyyətli olduğunu və buna ictimaiyyətdən ciddi dəstək verilməsinin zəruriliyini aktuallaşdırdı.

Bıçaqla nəticələnən qətlə görə hüquqi məsuliyyətin kimin daşıdığı aydındır. Bəs, mənəvi məsuliyyət kimindir? Əgər valideyn övladının təhlükəli vərdişlərini bilirsə, lakin bu barədə polisə məlumat vermirsə, elə günahkar valideyn özü deyilmi?

Yeniyetməlik həm uşaqlar, həm də onların valideynləri üçün çətin bir dövrdür. Onların əhval-ruhiyyəsi və davranışı tez-tez dəyişir, bəzən həyəcanlı, bəzən laqeyd, bəzən də açıq, bəzən də qapalı olurlar. Əgər evdəkilərdən istənilən diqqət və qayğını, dəstəyi ala bilmirsə, o zaman yeniyetmənin aqressiyası özünə, çox vaxtı isə ictimaiyyətə yönəlir.

Mütəxəssislər hesab edir ki, çox vaxtı insanlar arasında münaqişə yarananda, onlar emosional səviyyədə yaranan problemi sözlə çözə bilmirlər, verbal qabiliyyətini itirirlər və bu zaman fiziki zorakılıq baş verir.

Yeniyetmələrin bu psixoloji mərhələsini nəzərə alan polis maarifləndirici tədbirləri elə bu yaş kateqoriyaları arasında keçirir. Məsələn, ötən il polisin təşkilatçılığı ilə təhsil müəssisələrində fərqli mövzuları əhatə edən maarifləndirici görüşlər keçirilib. Nəzərə almalıyıq ki, ötən il cinayətlərin yalnız 1,2 faizi yetkinlik yaşına çatmayanlar tərəfindən törədilib. Bunun daha böyük rəqəmlərlə ifadə edilməməsində keçirilən preventiv tədbirlərin mühüm əhəmiyyəti danılmazdır.

Bu gün zərərli məlumatların sürətlə yayıldığı müasir informasiyalı cəmiyyətdə yeniyetmələri qorumağın ictimai vəzifəyə çevrilməsi istiqamətində daha ciddi addımlar atılmalıdır. Aydın məsələdir ki, hər şagirdi, yeniyetməni polis nəzarətində saxlamaq mümkün deyil. Yeniyetmələr arasında ictimai qayda əleyhinə davranışların müşahidə olunması təhlükə, həyəcan siqnalıdır. Təbii ki, buna ilk reaksiyanı da valideyn verməlidir.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Polis hazırlıqlı olmalıdır

## Peşə vərdişlərini təkmilləşdirmək qarşıya qoyulan tələbdir



Polis əməkdaşlarının fiziki, peşə və atəş hazırlığının səviyyəsinin yüksəldilməsi DİN rəhbərliyinin diqqət mərkəzindədir. Peşə səviyyəsini təkmilləşdirmək, qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlmək, cinayətkarlıqla qətiyyətli mübarizə aparmaq üçün yaradılan şərait asayişi və sabitliyi daha etibarlı qorumağa imkan verir.

Cinayət törətmiş şəxsləri tutmaq, onları polisə gətirmək, müəyyən edilmiş qaydada yaşayış binalarına və müxtəlif təyinatlı obyektlərə daxil olmaq, fiziki qüvvə, habelə zəruri hallarda xüsusi vasitələr və odlu silah tətbiq etmək, qanunvericiliklə tənzimlənən səlahiyyətləri yerinə yetirmək üçün polis hər an hazır, ayıq-sayıq olmalıdır.

Odur ki, DİO əməkdaşlarının müvafiq silahlardan praktik atışlara cəlb edilərək nəzəri biliklərinin, döyüş hazırlığı vəziyyətinin yoxlanılması hər il olduğu kimi, 2024-cü ilin ilk günlərindən həyata keçirilir. DİN Mərkəzi aparatının əməkdaşları atıcılıq vərdişlərinin təkmilləşdirilməsi üçün müvafiq cədvələ uyğun olaraq DİN-in atıcılıq tirində "Zəfər" silahından atəş açmaqla tapşırıqları yerinə yetiriblər.

*R.Əliyeva*

# Yazınız xarakterinizdən xəbər verir

## Xətti ekspertizanın cinayətlərin açılmasında rolu böyükdür

Barmaq izləri kimi, hər bir insanın əl yazısı unikaldır. Yazıda insanın anatomik quruluşunun, səbirsiz şəxsiyyətinin, diqqətli və ya vasvası xarakterinin izləri öz əksini tapır. Xarakterin müəyyənləşdirilməsi üçün də etibarlı mənbə olan əl yazısı mütəxəssislər tərəfindən asanlıqla təhlil edilə bilər. Araşdırmalar və testlər nəticəsində əldə edilən ümumiləşdirilmələrlə, günümüzün yazı üslubları vasitəsilə xarakter haqqında ipucu tapmaq olar.



### Yazı elmi: Qrafologiya

Qrafologiya elminin 3000 illik tarixi var. Bununla bağlı ilk tədqiqatlar Çində aparılıb. Kəşfiyyat və polis bölmələrinin istifadə etdiyi təcrübə sahələrindən biri olan qrafologiya təkcə cinayət işlərində deyil, müasir iş dünyasında da fəal şəkildə istifadə olunur. Bəzi iş yerləri potensial işçilərdən məlumat alarkən əl ilə yazılmış mətn tələb edirlər. Əl yazısına önəm verilməsinin səbəbi mətnin təhlili zamanı şifahi qəbul edilə bilməyən bir çox xarakter məlumatlarının üzə çıxmasıdır. Qrafologiyada dəqiq məlumat əldə etmək üçün bir mətni deyil, qeydə alınmış dəftəri, gündəliyi və ya bir çox məktubu təhlil etmək vacibdir. Mətnin forması yazıldığı zaman ətraf mühit faktorlarından təsirlənəcəyi üçün ümumiləşdirilmələrdə səhvlərə yol aça bilər. Müxtəlif vaxtlarda, həmişə mürəkkəblə yazılan və silinməz qələmlə qeyd olunan yazılar təhlil üçün ən doğru seçimdir.

### Əl yazısında hansı məlumatlar nəzərə alınır?

Mətni təhlil edərkən mətnin mailliyi, ölçüsü, çap gücü, hərf yazısı, durğu işarələri və səhifədən istifadə nəzərə alınır. Bəzi insanlar tez qeydlər apararkən, bəziləri diqqətlə təmiz qeydlər edir, cizgili kağız sifariş ehtiyacını təmin edərkən bəzi insanlar kağızdan üfüqi şəkildə istifadə edir. Yazı təhlil olunarkən onun hətta sağ və ya sol əllə yazılması da məlum olur.

### Mətnin maili xarakterinizi müəyyənləşdirir

Mətn dik və ya sağa və ya sola əyilmiş ola bilər. Şaquli əl yazısı müstəqil, azad ruhlu və bir qədər itaətsiz insanların seçimidir. Bir az sağa əyilmə, güclü ünsiyyət qabiliyyətini göstərir. Nəzarətçi və liderlik ruhuna malik insanlar da düzgün maillik yazırlar. Ağıl və duyğular arasında sağlam bir tarazlıq var. Sağa yamac artdıqca emosionallığın artdığı təəssüratı yaranır. Satış, marketinq, müştəri əlaqələri və ictimaiyyətlə əlaqələr sahələrində müvəffəqiyyətli olduğu düşünülən insanlar, ümumiyyətlə, sağ düşüncəli yazanlardır. Sola əyilmək təfərrüat əlamətidir. Hər təfərrüatı hesablayan və təsdiqləmək istəyən insanlar sola meyl edərək yazır. Xarakter analizi məlumatlarına görə, solaxay olmasalar da, sola meylli yazan insanlar güclü estetik seçimlərə malikdirlər və mükəmməlliyə meyillidirlər. İşinə sahib çıxan, müdaxiləni sevməyən, qismən özünə qapanan, fərdi işlərdə daha uğurlu olan insanlar sola meylli yazır. Yazı üslubunda xarakter təhlili aparılarkən şrift ölçüsü, eləcə də əyriliyin istiqaməti və dərəcəsi nəzərə alınır.

### Açılan cinayətlər

Yeri gəlmişkən, bir çox səs-küylü cinayətlərin üstü də xətti ekspertiza nəticəsində açılmışdır. Məhkəmə dilçiliyinin qurucularından sayılan britaniyalı alim Con Olsson yazdığı bir kitabda qarşılaşdığı inanılmaz qətllərdən bəhs edir. Kitabda təsvir edilən ən maraqlı hadisələrdən biri də sadəcə durğu işarəsi ilə açılan qətl hadisəsidir. Polis müfəttişi Garry Weddell intiqam planı hazırlayaraq arvadı Sandranı öldürüb. Müfəttiş Weddell peşəkar təcrübəsinə əsaslanaraq hazırladığı planın mükəmməl olduğunu düşünərək heç vaxt tutulmayacağına özünü inandırmışdı. Ancaq bir "nöqtə" onu ələ verdi.

Kanada polisi türk qızının qətlini əl yazısı ilə açıb. 2001-ci ildə vəhşicəsinə qətlə yetirilən Hande Çinkitaşın qatili 19 ildən sonra müəyyənləşib. Şübhəli onun atası idi, lakin heç bir dəlil tapılmırdı. Həmin vaxt Kanada polis rəisi Ankarada türk polisinə yazı təhlili dərsləri verirdi. Atanın qatili tapmaq üçün polisə yazdığı ərizə Kanadalı mütəxəssislərə təqdim edilib. Mətn təhlil olunub. Kanadalıların gəldiyi qənaətə görə qatil ata olub. Lakin Nezih Çinkitaşı heç bir dəlil olmadığı üçün həbs etmək mümkün olmayıb. Düz 19 il sonra DNT izləri tapılıb və qatilin ata olduğu sübut olunub.

1978-1995-ci illərdə ABŞ-da bombalı hücumlar həyata keçirən Ted Kaçinski də mətn analizi, yəni xətti ekspertizanın nəticələrinə əsasən yaxalanıb. Kaçinskinin "hekayəsi" əsasında "Manhunt: Unabomber" adlı serial çəkilib.

*Hazırladı: Aytən Tahirova*






# Bürünc medal qazandı

## Qaliblər sırasında polis də var




Ölkəmizdə kazak güləşi idman növü üzrə keçirilən III Avropa çempionatı yekunlaşıb. Yığma komandanın tərkibində çıxış edən Sumqayıt ŞPİ Post-Patrul Xidməti Taborunun taqım komandiri polis leytenantı Eyvaz Nəsibli 100 kiloqram çəki dərəcəsində 3-cü yeri tutub.

Həmkarımız ilk olaraq macarıstanlı rəqibi üzərində inamlı qələbə qazanıb. Moldaviya təmsilçisini məğlub edən E.Nəsibli növbəti görüşdə estoniyalı idmançını da tatamidən kənarlaşdırıb. Yarımfinalda isə Polşa nümayəndəsi sevinən tərəf olub. Üçüncü yer uğrunda mübarizədə həmkarımız digər estoniyalıya şans verməyib.

Qeyd edək ki, polis leytenantı E.Nəsibli cüdo və sambo idman növləri üzrə dəfələrlə ölkə çempionu adını qazanıb.

*Teymur Əlizadə*

# Polis xəfiyyəsi Ejen Fransua Vidokun memuarları - Köhnə tanışların görüşü

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

### Təkrar cinayətin cəzası

Düşünürdüm ki, Deplankı sıralarımıza qəbul etməklə doğru addım atmışam. Amma tezliklə qərarımda yanıldığımı anladım və bu islaholunmaz oğruyla yollarımızı ayırdım. Briqadadan ayrıldıqdan bir müddət sonra maddi vəziyyəti pisləşən Deplank yenə köhnə peşəsinin əsirinə çevrildi. O, bir axşam Bak küçəsindəki puldəyişmə məntəqəsinin pəncərəsini sındıraraq qızıl sikkələrlə dolu mücrünü oğurlayaraq qaranlıqda gözdən itmək istəyəndə birdən kimsə uca səslə qışqırmağa başladı: - "Oğru, oğru, keşikçi!". Səsi eşidən agentlərim dərhal onun ardınca düşdülər. Təqib olunduğunu görən Deplank sürətlə qaçmağa başladı. Arxasınca düşənlərdən canını qurtardığını düşünürdü ki, qaranlıq döngədə pusquda gizlənmiş keçmiş iş yoldaşları olan agentlərimin düz qucağına düşdü. Bax, bu, onun üçün əsl ölümcül görüş sayıla bilərdi. Nə qədər çabalasa da əllərindən yaxa qurtara bilmədi. Əməliyyatçılar onu komissarın yanına apardılar. Oğurluqda şübhəli bilinən Deplankın üzərinə baxış keçirilən zaman əməlini sübut edən maddi sübutlar aşkar edildi. Təkrar cinayət törətdiyinə görə məhkum edilərək ömürlük katorqaya göndərildi. Əminliklə deyə bilərəm ki, o, hələ də Tulon qalasında ən dözülməz şəraitdə cəzasını çəkir.

Bəzən elə hallar baş verirdi ki, yaxaladığım oğrulardan bəziləri gözləniləmədən həyatlarını itirirdilər. Sanki hansısa gözəgörünməz birisi onları mənim yanıma bilərəkdən göndərirdi. Etiraf etməliyəm ki, fikirləşmədən canavarın ağzına girənlər ya həddindən artıq cəsur, ya da dar düşüncəli olur. Oğruların bir çoxunun tələyə belə asanlıqla düşdüyünü görəndə düşünürdüm ki, görəsən onlar ələ keçməmək üçün hər cür ehtiyat tədbirlərinin görülməsi vacib olan bu peşəni necə seçiblər? Bəziləri o qədər sadəlövh idi ki, hətta mənimlə qarşılaşdıqları ana qədər cəzasız qalacaqlarına belə inanırdılar. Sanki bu adamlar tələyə düşmək üçün fürsət axtarırdılar. Hərdən öz-özümə düşünürdüm görəsən, necə olub ki, onları mən polisdə xidmətə başlayana qədər asılmayıblar? Doğurdanmı, Parisin polis idarəsi mənə qədər gülünc durumda olub, yoxsa tale mənim üzümə inanılmaz dərəcədə gülüb? Düşünürəm ki, bu suala cavab tapmaq üçün sizə başıma gələn bir hadisəni nəql etməliyəm.




Bir axşam fəhlə qiyafəsində Jiver bulvarında oturmuşdum. Birdən mənə cinayətkar aləmdə söz sahibi olan bir oğru yaxınlaşdı.

- Axşamınız xeyir, çox hörmətli Jan-Lui. Sonra o, əlini ehmalca çiyninə qoydu.

- Hər vaxtın xeyir, qardaş.

- Sən niyə bu günə düşmüsən? Adam sənə baxmağa qorxur, elə bil meyitsən.

- Nə deyə bilərəm, dostum?! Günlərdir ac-yalavac dolanan adam necə görünə bilər ki? İnan, səninlə söhbət etməyə belə taqətim yoxdur.

- Günlərdi ac-yalavac? Daha nələr! Hamı səni bizim dostumuz bilir. Biz dostumuzu darda qoymarıq.

- Bilirsən bunu sənin dilindən eşitmək mənə necə xoşdu.

- Bəsdir çərənlədin, dur gedək Niqnarın yanında bir-iki qədəh içək.

Biz birlikdə meyxanəyə getdik. O, yarım litr şərab sifariş verib bir dəqiqəlik ayrılacağını söylədi. Geriyə əlində kartofla dolu iki boşqabla döndü.

- Buyur, qonaq ol, deyərək üstündən par çıxan boşqabları masanın üstünə qoydu.

- Bir azca da duz olsaydı əla olardı.

- Duz! Can qardaş! Nə qədər istəsən, narahat olma, nə istəyirsən sifariş ver.

Düzü, bir saat əvvəl Martenin yeməkxanasında nahar etmişdim, amma kartofa elə acgözlüklə girişdim ki, sanki günlərdi boğazımdan heç nə keçməyib.

- Ağzını elə marçıldadırsan ki, sanki kartof yox, mal əti yeyirsən.

- Nə yediyimin fərqi yoxdu, təki qarnım tox olsun.

- Düz deyirsən, oğlan.

Kartofları ağzıma elə sürətlə dürtürdüm ki, az qala boğulacaqdım. Bir az da belə davam etsəydi yəqin ki, mədəm partlayacaqdı. Öz payımı yeyib doyduqdan sonra qəlyan çəkməyi mənə təklif edən dostum söhbətə aşağıdakı sözlərlə davam etdi.

- Şərəfim üzərinə and olsun ki, sən məni necə yaxının bilirsənsə, mən də səni özümə o qədər doğma bilirəm və buna adım kimi əminəm. Bilirəm həyatın hər çətinliyini görmüsən, doğrusu, bu barədə mənə çox danışıblar, amma, bu ömürlük belə davam edəcək anlamına gəlməz. İstəsən pul qazanmaqda sənə kömək edə bilərəm.

- Lənətə gələsən, bu əla olardı. Pulsuzluqdan yaman günə düşmüşəm.

- Doğrudur.

*(Ardı var)*

# Müdriklərin söz xəzinəsi

## Biləyi güclü birini yıxar, biliyi güclü minini

Mən müəllimlərimdən, yoldaşlarımdan daha çoxunu şagirdlərimdən öyrəndim.

❖❖❖

Əgər müdriksənsə, varlının, hökmdarın, uşağın, qocanın, arvadın, axmağın və müəllimin əleyhinə getmə.

❖❖❖

Ölkəni inkişaf etdirib irəli aparan elm və təhsildir.

❖❖❖

Valideynin ən şərəfli bəzəyi ədəbli, tərbiyəli uşaqdır.

❖❖❖

Bir alimdən: "Kimi ağsaqqal saymaq olar?", - deyə soruşduqda, o, "Elmi başqalarına öyrədən elm sahiblərini", - cavabını vermişdir.

❖❖❖

Xətasız olmaq yox, xətalardan dərs almaq lazımdır.

❖❖❖

Hər kəsin dəyəri onun biliyi qədərindədir.

❖❖❖

Ən ağıllı filosoflar belə axmaq suallara cavab verməyə çətinlik çəkiblər.

❖❖❖

Hər cür bilik müşahidələrə və təcrübəyə əsaslanır.

❖❖❖

Çox bilmək lazımdır ki, az bildiyini biləsən.

❖❖❖

Öyrəndiklərini etsən, susduğun vaxt işlərin danışar.

❖❖❖

Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq gərəkdir.

❖❖❖

Bilik güc, güc isə bilikdir.

❖❖❖

Biləyi güclü birini yıxar, biliyi güclü minini.

❖❖❖

Bilikli adamın bir günü nadanın bütün ömrünə bərabərdir.

❖❖❖

Gənc ikən bilik ağacını əkməsək, qocaldığımız zaman kölgəsinə sığınacaq bir yerimiz olmaz.

*Hazırladı: T.Aytən*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik